**SÖNMƏZ ABBASLI**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
**Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu**
**sonmezabbasli@gmail.com**

# QARABAĞ RƏVAYƏTLƏRİNİN TƏDQİQİ TARİXİNDƏN

**Açar sözlər:** Qarabağ, rəvayət, tarixi, Sarı Aşıq, Abdal Qasım, Aşıq Valeh
**Ключевые слова:** Карабах, предание, исторический, Сары Ашыг, Абдал Касим, Ашыг Валех
**Key words:** Garabag, rumor, historical, Sari Ashug, Abdal Gasim, Ashug Valeh

Əsasən hekayət xarakteri daşıyan rəvayətlər Qarabağ folklor mühitində geniş yayılmışdır. Rəvayətlər keçmişi ehtiva edən hadisələr, əhvalatlar və real və qeyri-real şəxslər haqqında dolaşan hekayələr toplusundan ibarətdir. Müxtəlif tarixi kəsimlərdə yaranmış rəvayətlər çox da geniş süjet xəttinə malik deyil və lakonik məzmunla fərqlənirlər. Rəvayətlərin mövzu çevrəsinə həm tarixi, həm sosioloji, həm etnik, həm də məişət mövzuları daxildir. Araşdırıcılar rəvayətləri müxtəlif qruplar üzrə təsnif etmişdilər. Prof. İ.Abbaslı Azərbaycan rəvayətlərinin səciyyəvi xüsusiyyətlərindən, ideya-məzmun axarından və ümumi mahiyyətindən çıxış edərək onları bu bölmələrdə qruplaşdırmağı məqsədəuyğun hesab etmişdir: 1) etimoloji rəvayətlər 2) izahlı rəvayətlər 3) real və yarımtarixi şəxsiyyətlərlə bağlı rəvayətlər (1, 12-14).

Qarabağ rəvayətlərinin tədqiqi zamanı isə aşağıdakı təsnifat ortaya çıxır.

1) Etimoloji rəvayətlər
2) Toponomik rəvayətlər
3) Real və yarım tarixi şəxsiyyətlərlə bağlı rəvayətlər
4) Aşıq rəvayətləri
5) Müxtəlif mövzulu rəvayətlər

Qeyd olunduğu kimi rəvayətlərdə tarixiliyə meyillilik qabarıqdır. Xüsusən tarixi şəxsiyyətlər, qaçaqlar, tanınmış insanlar və pəhləvanlar haqqında yaranmış rəvayətlər qarabağlılar arasında geniş yayılmışdır. “Qatırçı Murad” rəvayətinin süjetinə nəzər salaq: Real tarixi şəxsiyyət İbrahim xanın üç karrı adamı olur. Biri Molla Vaqif, digəri Pərioğlu Həsən,

üçüncüsü isə Qatırçı Murad olur. Rəvayətdə onların şücaətli olmaları qeyd edilir və deyilir ki, Həsən Araznan Kür arasında kim tabe olmurdu, ayağa qalxırdısa, onun qabağını alırmış. Qatırçı Muradın atası isə İran Azərbaycanından gəlmə Alverdi olur, özü də çox kasıb olur, nökərçilik edir. İbrahim xan onun oğlu Muradı qəlfə-qatırına baxmaq üçün alır. Günlərin bir günü İbrahim xan gəlir, öz atını minə bilmir. At o qədər dəmli, o qədər yaxşı olur ki, atı minə bilmiyəndə deyir görən bu ata nə verir ki, at minməyə qoymur. Muradı pusanda görür ki, Murad apardı atın yemini verdi. Yemini verəndən sonra bunun altını qurulamax üçün peyin qurutdu. Peyini atın altına səpəndən sonra paltarını soyundu onun üstündə ağnadı ki, görüm haramı əzir. Onu əzən hissələri yığdı bir vedrəyə, apardı tökdü çölə. İbrahim xan bunu belə görəndə Muradı çağırır, deyir:— Səni bəy yazacam.

Qatırçı Murad isə deyir ki, mən kasıb bir kişinin oğluyam. Məndən bəy olar? İbrahim xan isə bildirir ki, səni bəy yazacam, sən yaxşı adamsan. Ağdamın üstündəki Muradbəyli kəndini də ona verir və deyir ki, kəndin bac-xəracın sən al, orda dolan" (3, 122-123).

Bu rəvayətdən məlum olur ki, Muradbəyli kəndi qatırçı Muradın adından yaranıb. Üstəlik, qarabağlılar arasında dolaşan "hər iyid Həsən olmaz, hər ağaşdan masan olmaz, hər oxuyan Molla Pənah olmaz, hər qatırçı Murad olmaz" el məsəlinin izahı bu rəvayətdən bəlli olur.

Qarabağ rəvayətlərində Qarabağın bir çox kəndləri epikləşmişdir. Həqiqətən də bu rəvayətlərdə müxtəlif kənd adlarının izahı aydınlaşır. Lolabağır kəndi, Qorçu kəndi, Budaqdərə kəndi, Malıbəy, Mollalar, Korcabulaq və s. kəndləri ilə bağlı yaranmış rəvayətlərdə bu adların etimologiyası açıqlanır. "Yağlıfənd kəndi" adlı rəvayətdə də bu adın maraqlı tarixçəsi şərh olunur. Rəvayətin süjetinə nəzər salaq: "Ağaməhəmməd Şah Qacarın qoşunu Arazı keçir bu taya, gəlir Yağlıfəndə. Kənd camaatına deyir ki, bu axşam qoşunumu yedirdərsiz. Bular da fikirrəşir ki, bu qədər qoşunu nətər yedirsinnər. Bir kəndin gücü buna çatmaz. Ağsakqal adamlar deyir ki, əsgər nə bilir yağlı yemək nədir. Bunnara yağlı yemək vermək lazımdı ki, tez doysunnar. Deyəllər, nə qədər iri quyruxlu qoç var kəsin. Elə eliyin ki, qazanda yağ su əvəzi olsun. Nəysə, bişirif töküllər əsgərin qabağına. Əsgər yeyir. Əsgər bədəni yağ götürmür axı. Elə vəziyyət yaranır ki, əsgərlər arasında yatalax xəstəliyi yaranır. Bundan sonra Ağaməhəmməd Şah Qacar Arazı addıyıf İrana qayıdır. Kəndin adı isə Yağlıfənd qalır" (3,101).

Göründüyü kimi, Qarabağ təbiətinin məkan özəlliklərinin rəvayətlərdə obrazlaşması, Qarabağ rəvayətlərinin regional özünəməxsusluğu kimi çıxış edir.

Qarabağ rəvayətlərində Qarabağın aparıcı aşıqlarından olan Sarı Aşıq, Aşıq Valeh, Aşıq Abbasın adları tez-tez çəkilir.

Diqqəti cəlb edən rəvayətlərdən biri Sarı Aşıqla bağlı olan əhvalatdır. Bu rəvayətdə Sarı Aşığın möcüzəli doğuluşu motivi diqqət çəkir. Rəvayətdə deyilir ki, "Elat gəlib Laçından keçib İstisuya gedirdi, yayda orda qalıb, qışda Bərdə, Ağcabədiyə gəlirdi. Bir dul arvad hər gələndə onları evinə qonaq çağırır, çobanlara çörək verir, süfrə açır, yemək bişirir. Daha sonra rəvayətdən məlum olur ki, çobanlardan biri bu arvada deyir ki, biz gedirik, elə olsun ki, gələn dəfə gələndə sən qapıda bir beşik asasan. O qapıda bir beşik olsa, sənin evinə dönüb sənin çörəyini yeyəcəyik. Əgər o qapıda beşik olmasa, biz sənin qapına dönməyəcəyik. Daha sonra rəvayətdən məlum olur ki, ay dolanıb, il ötəndən sonra arvad çox fikirləşib qoy mənim qonağım məndən küskün getməsin deyib qapıdan bir beşik asır. Beşiyin içinə də bir sarı daş qoyur, tez bunun üstünü örtür. Arvad fikirləşir ki, yəqin çobanlar beşiyin içinə baxmazlar, uşağı gətir, — deməzlər. Çobanlar qapıda bir beşik görüb Allaha şükür edib, bunun uşağı olubdu deyib içəri keçir, yeyib-içirlər. Ay xanım, get uşağı gətir, bir uşağı görək — deyəndə arvad titrəyə-titrəyə Allaha yalvarır ki, Ay Allah, bir möcüzə göstər, mənim üzüm bu qonağın yanında yerə düşməsin. Bunu deyib arvad gəlib örtüyü qaldırır ki, daşı götürüb bunlara göstərsin. Baxır görür ki, burda bir dənə sarı oğlan uşağı var. Arvad əsə-əsə uşağı qucağına götürür, gətirir. Çobanlar uşağın adı ilə maraqlananda qadın hələ ad fikirləşmədiyini, sizi gözləmişəm ki, məsləhətləşim qoyax deyir. Bu zaman çobanlardan biri deyir ki, elə bunun adını da Sarı qoyaq. Dul qadın razılaşır. Və oğlanın adı Sarı olur". Rəvayətin sonunda deyilir ki, o böyüyür, aşıq olur, aşıq ləqəbi də üstünə gəlir və Sarı Aşıq kimi tanınır (2, 113-114).

Bu örnək rəvayətdən çox əfsanə səciyyəsi daşıyır. Çünki burada fantastik doğuluş, daşın oğlana çevrilməsi motivi əks olunur. Möcüzəli doğuluş, çevrilmələr- dönmələr əfsanə janrı üçün xarakterikdir. Bu mətndə diqqətçəkən məqam Azərbaycan qadınıdır, bu qadının əliaçıqlığı, qonaqpərvərliyidir. Bu dul qadın çobanların onun evində çörək kəsməsi üçün yalana əl atmaqdan da çəkinmir. Onları yedirib-içirtmək üçün qapısında beşik asıb içinə sarı bir daş qoyur. Bu mətndə bu qadının timsalında bütövlükdə xalqın qonaqpərvərliyi önə çıxır.

Lətifə qəhrəmanı kimi tanıdığımız Abdal Qasım Qarabağ rəvayətlərində bir rəvayət qəhrəmanı kimi də qarşımıza çıxır. Abdal Qasımın adı ilə bağlı yaranmış rəvayətlərdə Abdal Qasımın qoçaqlığı, qorxmazlığı təqdim olunur. Belə rəvayətlərin birində "Abdal Qasım əmisi oğlunun qisasını alır" adlı rəvayətdə deyilir ki, "Erməni- müsəlman davasında ermənilər onun əmisi oğlunu öldürüllər. Sora gətirif bir axarrı-baxarrı yerdə yekə bir ağaca sarıyıllar. Meyidi ağaca bağlıyıllar ki, Avdal camahatına görk olsun, adamlar qorxsunnar. Sora da Avdal Qasıma sifariş göndərillər ki, əyər kişisənsə, iyidsənsə, gəlif meyidi apar" (2, 107).

Rəvayətdən məlum olur ki, Abdal Qasım yekə bir iti öldürüf, dərisini çıxardıf özünə yekə bir kürk eliyir. Gecə onu əyninə geyib yavaşcadan sürünə-sürünə ermənilərə yaxınlaşır. Ermənilərin yeyib-içməsini görüb, bir az gözləyir. Onları yuxu apardıqda o qarovulçuya yaxınlaşır çomağını onun çənəsinin altına qoyub, tüfəngini götürür. Daha sonra o əmisi oğlunun meyidini açıb ermənilərdən uzaq bir yerə aparır, yenidən ermənilərin yanına gəlib onların hamısını öldürür. Deyilənlərə görə bundan sonra ermənilər onun qorxusundan Abdala yaxınlaşa bilmirlər (2, 107).

Bu mətndən aydın olur ki, Abdal Qasım igidliyi ilə nəinki əmisi oğlunun meyidini geri alır, o həm də ermənilərin hamısını öldürməklə qisas almış olur.

"Erməni-müsəlman müharibəsində Abdal Qasımın fəaliyyəti" adlı digər bir rəvayətdə də onun 1905, 1918-ci illərdəki erməni-müsəlman müharibəsindəki böyük fəaliyyəti diqqətə çatdırılır. Onun erməni dilini mükəmməl bilməsi düşmənin asanlıqla məhvinə səbəb olur. Rəvayətdən məlum olur ki, "o bizim döyüşçülərə deyirmiş ki, gedin filan yerdə dərədə pusquda dayanın, erməniləri mən ordan gətirəjəm. Duruf, gedif erməniləri gejəykən ermənicə çağırırmış ki, müsəlmannar filan yerdən üsdüvüzə hüjum eləmək isdiyillər, gəlin, arxalarına keçək, oları qırax" (2, 110). Beləliklə, mətndən aydın olur ki, özünü erməni kimi qələmə verən Abdal Qasım erməniləri pusquya salır və məhv edirmiş.

Abdal Qasımın adı ilə bağlı dolaşan rəvayətlərdə onun sərrast atıcılıq fəaliyyəti də üzə çıxır. Eyni zamanda lazım gəldikdə hiylə işlətməyi də diqqətə çatdırılır.

Qarabağ rəvayətlərində tarixi şəxsiyyətlərin adlarına tez-tez rast gəlinir. Şah Abbas, Nadir şah, Pənah xan, Qaçaq Nəbi və digər real tarixi obrazlar Qarabağ rəvayətlərindən aparıcı bir xətt kimi keçir. Pənah xanın adı ilə adlanan "Pənah xan" adlı bir rəvayət örnəyində Qarabağın bünövrəsinin (xanlıq nəzərdə tutulur- S.A) Pənah xan tərəfindən qoyulduğu nəql edilir. Onun İran tərəfindən gəlmə olduğu, düşmənlərin əlindən qaçıb bu yerə pənah gətirdiyi qeyd olunur. Rəvayətdən məlum olur ki, bu tarixi şəxsiyyət ilk olaraq Ağcabədi rayonunun Bulax kəndinə köç edib. Sonra qeyd olunur ki, düşmənlərlə baş edə bilməyərək o yenidən köç edib Ağdamın Şahbulax kəndinə pənah gətirir. Burada da düşmənlərin əl çəkmədiyini görüb Pənah xan adamlarına əmr verir ki, gedin elə bir yer tapın dörd tərəfi sıldırım qayalıqlı olsun, düşmən girə bilməsin. Bu zaman adamları Pənah xana Şuşanı tapırlar. Pənah xan həm Şuşada, həm də Ağdamda çoxlu tikililər tikdirir. Rəvayətdə deyilir ki, o zaman Pənah xan Ağdamda ağ daşlardan evlər tikdirir. Başqa yerlərdən gələnlər bu ağ damlarda gecələyirdilər. Ağdamın adı da belə yaranıb" (2, 104). Məlum olduğu kimi bu rəvayətdə tarixi reallıq öz əksini tapmışdır.

Qarabağ rəvayətlərində Qaçaq Nəbinin adı tez-tez hallanır. Onun adı ilə bağlı rəvayətlərin birində maraqlı süjetlə üzləşirik. Rəvayətdə deyilir ki, bir gün Qaçaq Nəbinin yolu Zəngilana düşür. Bir evdə qonaq olur. Ev sahibinin də bir boz atı olur. Nəbinin gözü bu boz ata düşür. Nəbinin qabağına yumurta bişirib qoyullar. Süfrəyə duz-çörək də qoyullar. Qaçaq Nəbi çörəksiz, duzsuz bu yumurtaları yeyir. Gecənin bir vədəsi o durub öz atını qoyur, gözü düşdüyü bu boz atı minir, dağlara çıxır. Ev sahibi səhər durduqda baxıb görür ki, at yoxdur (4, 117).

Bu rəvayətdə Qaçaq Nəbinin xarakteri açılır. Yəni, o, oğurluq edəcəyini bilib o evdə duz-çörək kəsmir. Çünki duz-çörək kəsdiyi evdə oğurluq etmək kişiliyə yaraşmaz. Qaçaq Nəbi isə mərdlik, igidlik simvoludur.

Ümumiyyətlə, rəvayətlər içərisində Qaçaq Nəbinin qoçaqlığı ilə bağlı örnəklər kifayət qədərdir.

Qarabağ rəvayətlərində adı tez-tez çəkilən obrazlardan biri Şah Abbasdır. Nağıl, lətifə qəhrəmanı olan Şah Abbas həm də Qarabağ rəvayətlərinin qəhrəmanıdır. Rəvayətlərin əksəriyyətində nağıl və lətifələrdə olduğu kimi Şah Abbasın adı vəziri Allahverdi xanla birgə çəkilir. “Bayquşların söhbəti” adlı bir rəvayətdən də məlum olur ki, Şah Abbas vəziri xan Allahverdiynən gəzintiyə çıxır. Görür ki, biri erkək, biri dişi olan iki bayquş söhbət edirlər. Şah Abbas onların nə dediyini Allahverdi xandan soruşduqda vəzir bildirir ki, erkək quş dişi bayquşa deyir ki, qızını mənə ver, oğluma alım. O da deyir ki, yaxşı, verrəm bu şərtnən ki, mənə bir neçə xaraba kənd verəsən. O da deyir ki, narahat olma, nə qədər ki, Şah Abbas şahdı, kökmdardı, sənə istədiyin qədər xaraba kənd verəcəyəm. Rəvayətin sonunda deyilir ki, bu əhvalatdan sonra Şah Abbas bütün xəzinənin ağzını açıb kasıblara paylayır (4, 111).

Bu rəvayət bizə Şah Abbasın zülmkar, zalım bir şah olmasını xatırladır. Lakin bayquşların söhbəti ilə şahın xarakterində yumşalma özünü göstərir. “Xaraba kənd” məsələsi şahı ədalətli və səxavətli davranmağa sövq edir. Bu tipli rəvayətlər Qarabağ örnəkləri içərisində çoxluq təşkil edir.

Tarixlə qaynaqlaşan rəvayətlərin bir qismi Nadir şahın adı ilə bağlıdır. Qarabağdan qeydə alınmış “Nadir şah” adlı rəvayətdə Nadirin Şəkiyə hücumu öz əksini tapır. Rəvayətdə qeyd olunur ki, Nadir şah Şəki üzərinə hücum edir və şəkililər də “Gələrsən-görərsən” qalasına sığınırlar. Nadir şah Çələbi xanın üstünə adam göndərir ki, gəlsin, görüşək. Çələbi xan Göynüyün ağsaqqallarını bir yerə yığıb deyir ki, gedim, getməyim. Ağsaqqallar da ona məsləhət verirlər ki, sən həm məşədisən, həm də xansan. O bir cavan oğlandı, sərkərdədi, sən onun ayağına getməli deyilsən, o gəlsin buraya. Elə buradan da Gələrsən, görərsən qalasının adının yaranma tarixi bəlli olur. Nadir şah da məktub yazır ki, gələrsən, görərsən. (2, 102).

Qarabağ bölgəsindən qeydə alınmış mətnlərdən də göründüyü kimi Qarabağ folklor xəritəsində rəvayətlər geniş yayılmış və özünəməxsus cizgilərlə səciyyələnir.

## QAYNAQLAR

1. Abbaslı İ. Əfsanə və rəvayətlərin janr özünəməxsusluğu, Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XI, Bakı, Səda, 2002
2. Qarabağ: Folklor da bir tarixdir, III kitab (Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanmış folklor örnəkləri), Bakı, Elm və təhsil, 2012, 468 səh.
3. Qarabağ: Folklor da bir tarixdir, IV kitab (Laçın, Qubadlı və Zəngilan rayonlarından toplanmış folklor örnəkləri), Bakı, Elm və təhsil, 2013, 460 səh.
4. Qarabağ: Folklor da bir tarixdir, VI kitab (Cəbrayıl, Kəlbəcər, Tərtər rayonlarından toplanmış folklor örnəkləri), Bakı, "Zərdabi LTD" MMC, 2013, 468 səh.

**С.Аббаслы**

## Из истории Карабахских преданий
## Резюме

Предания в карабахской фольклорной среде также представляют особую ценность. Очевидна склонность к истории в карабахских преданиях. Рассматривая предания, собранные с Карабаха, заметно широкое распространение в них повествования, созданные об исторических личностях, народных мстителях, выдающихся личностях и борцах. Эпичны многие селы Карабаха в карабахских преданиях. В карабахской преданиях часто упоминаются имена таких ведущих карабахских ашугов, как Сары Ашыг, Ашыг Валех и Ашыг Аббас,. Известный герой анекдотов Абдал Касим, в карабахских преданиях также встречается как герой преданий.

В карабахских преданиях часто встречаются имена исторических личностей. Шах Аббас, Надир Шах, Панах Хан, Гачаг Неби и другие реальные исторические образы проходят как ведущая линия карабахских преданий. Специфика пространственных особенностей карабахской природы в преданиях выступает в качестве региональной самобытности карабахских преданий.Легендарное представление пространственных особенностей карабахской природы выступает в качестве региональной идентичности карабахских преданий.

**S.Abbasli**

**About the history of Garabag rumors**

**Summary**

The rumors mean a special value in Garabag folklore sphere. Historical trends in the Garabag rumors are vivid. If we look through the rumors we find out that the rumors dealing with the historical persons, brigands, famous men and athletes are widely spread here. In Garabag rumors the villages of Garabag are epicized.

The names of Karabakh ashugs, such as Sari Ashug, Ashug Valeh and Ashug Abbas are often mentioned in Garabag rumors. Abdal Qasim, who we know as a hero of joke also appears in the stories of Garabag as a hero of rumor.

The names of historical personalities are frequently mentioned in Garabag rumors. Shah Abbas, Nadir Shah, Panah Khan, Gachag Nebi and other real historical characters pass from Garabag narrations as a leading line. The legendary representation of the spatial features of Garabag nature acts as the regional identity of Garabag rumors.

**Rəyçi: Rza Xəlilov**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**